# Sosial-iqtisadi inkişafın Qəbələ nümunəsi

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

Qeyd etmək lazımdır ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda müəyyən dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın inkişafını nəzərə alaraq yemə olan tələbatın ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Bundan əlavə ilk dəfə olaraq digər ərzaq bitkilərinin də əkinləri aparılmışdır. Belə ki, bu il 16,5 ha sahədə qarabaşaq, 20 ha sahədə şəkər cuğunduru və 1 ha sahədə çəltik əkilmişdir. Həmin sahələrdən 35 ton qarabaşaq və 2,5 ton çəltik istehsal olunmuşdur. Yaxın vaxtlarda isə şəkər çuğundurunun yığımına başlanılacaqdır.

Fermerlərimiz mütərəqqi metodlar tətbiq edərək əkin sahələrinin məhsuldarlığının artırılmasına diqqəti artırmışlar.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 2442 saylı Sərəncamına əsasən fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi fermerlərdə yeni fındıq bağlarının salınmasına stimul yaratmış və bu sahədə rayonumuzda müəyyən işlər görülmüşdür.

Belə ki, fındıqçılığın inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda 2016-cı ilin payızından etibarən əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq bu istiqamətdə işlərə başlanılmış və 900 hektar yeni fındıq bağları salınmışdır.

Keçən ildə uzun fasilədən sonra rayonumuzda barama və tütün istehsalına başlanılmışdır. 2016-cı ildə il 389 kq barama istehsal edilərək təhvil verilmişdir. Cari ildə 55 nəfər kümçü tərəfindən 2860 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır. Barama istehsalının artması ilə əlaqədar rayonda barama qəbulu və qurutmaxanası məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

Cari ildə 70 ha sahədə tütün əkilmişdir. Bu günə kimi 74 ton quru tütün istehsal olunmuşdur. Hazırda tütün tədarükü davam etdirilir.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2017-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə analizə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları laboratoriyada yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi toxumluq əkin sahələrində abrobasiya aparılaraq ortaq məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrin məhsuldarlığı 35-40 sentner olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda növbəti ilin taxıl əkini üçün kifayət qədər yüksək kondisiyalı toxum bazası mövcuddur.

Kənd təsərrüfatı idarəsi tərəfindən torpaq sahibləri arasında, pay torpaqlarının könüllülük prinsipi əsasında birləşdirilərək iri təsərrüfatların yaradılması istiqamətində təbliğat işləri aparılır. Belə təsərrüfatların yaradılması iqtisadi cəhətdən səmərəli olmaqla təsərrüfatda bütün aqrotexniki qaydalara riayət olunması üçün şərait yaranır.

Rayon tingçilik təsərrüfatında 5 hektar yeni fındıq bağının salınması üçün hazırlıq işləri görülür. Bu məqsədlə 4000 ədəd fındıq tingləri yetişdirilmişdir. 1500 ədəd tut tingi, 400 ədəd alma tingi və 600 ədəd calaqaltı yetişdirilmişdir.

“Aqro-meşə massivlərinin yaradılması” barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış dövlət proqramının icrası ilə əlaqədar bu ilin 9 ayı ərzində 0,7 hektar sahədə badam, 73 hektar sahədə fındıq, 5,6 hektar sahədə alma, 24,6 hektar sahədə şabalıd, 6,10 hektar sahədə qoz tingi əkilmişdir. 110 hektar sahədə yeni meyvə bağı salınaraq, ümumilikdə 28100 ədəd ting əkilmişdir. Müəssisənin tinglik ərazisində 6300 ədəd əsasən tut, qoz, şabalıd və alma cinslərindən ting yetişdirilmişdir. Bundan əlavə 130 kq toxum tədarük edilmiş, aqro-meşə bağ massivinin salınması üçün 6 hektar sahədə torpaq hazırlığı işləri aparılmışdır.

Rayonun ümumtəhsil məktəblərini, uşaq bağçalarını və qazsız kəndlərinin əhalisini odun yanacağı ilə təmin etmək məqsədi ilə 917 kubmetr odun satışı proqnozlaşdırılmış, ondan 400 kubmetr odun tədarük edilərək satılmışdır.

Hazırda rayonda kənd təsərrüfatı işlərinin aparılmasını təmin etmək üçün kifayət qədər kənd təsərrüfatı texnikası vardır. Belə ki, rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda müəyyən qədər kənd təsərrüfatı texnikası mövcuddur. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 72 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 420 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskovator və s. kənd təsərrüfatı maşınları mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Rayonda iri buynuzlu mal-qaranın sayı 46272 baş, o cümlədən inək və camışlar 23402 baş, qoyun-keçilər 190545 baş, donuzların sayı 1096 başdır. Görülən işlərin nəticəsində ötən dövr ərzində ət istehsalı (diri çəkidə) 3458 tona, süd istehsalı 31116 tona, yumurta istehsalı 8395 min ədədə, yun istehsalı isə 412 tona çatdırılmışdır.

Rayonumuzda fəaliyyət göstərən 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənməsində mühüm rol oynayır.

Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində heyvandarlıq məhsulları istehsalının artırılmasında, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında və damazlıq keyfiyyətlərinin yüksəldilməsində mühüm rol oynayan süni mayalama tədbirlərinin həyata keçirilməsi genişləndirilir.

Bu məqsədlə rayonda 9 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 9 ay ərzində süni mayalama mütəxəssisləri tərəfindən 5710 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalandırılmışmış heyvanlardan 2202 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilir. 2017-ci ilin 9 ayında 1244 baş süni mayalanmadan alınmış buzovlara görə heyvan sahiblərinə 124400 manat subsidiya verilmişdir. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də heyvan sahibləri heyvanların mayalandırılmasında mütərəqqi metod olan süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir.

Rayon balıqyetişdirmə zavodu 2017-ci ilin 9 ayında Kür çayına 30700 ədəd kür qızıl balığın buraxılmasını təmin etmişdir. Ana balıqlardan bu dövrdə 150000 ədəd kürü götürülmüşdür. Hazırda zavodda 90000 ədəd körpə balıq yetişdirilir. Oktyabr- Noyabr aylarında Xəzər dənizinə müəssisə tərəfindən daha 30000 ədəd balığın buraxılması nəzərədə tutulmuşdur.

Respublikamızın paytaxtı Bakı şəhərində 2006-cı ildən təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edirlər. 2017-ci ilin altı ayında həmin yarmarkalarda 21,3 ton tumlu, 14 ton qərzəkli meyvələr və 3,5 ton müxtəlif tərəvəz məhsulları satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam etdirilir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin ötən dövründə informasiya şəbəkələrinin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir.

Cari ilin 9 ayında rayon icra hakimiyyətinə ümumilikdə 606 ərizə daxil olmuşdur. O cümlədən 272 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 13 ərizə Milli Məclisdən, 14 ərizə Nazirlər Kabinetindən, 40 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 267 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımın təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

2017-ci ilin 9 ayında vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 9 ay ərzində 520 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər həyata keçirilmiş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də 2017-ci ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 33 səyyar görüş-qəbulu olmuşdur. Qəbullarda 3330 nəfər iştirak etmişdir. Onlardan 248 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 212-si həll edilmiş, 22 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 14 məsələnin həlli isə rayon icra hakimiyyətinin səlahiyyətlərinə aid olmadığına görə respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır.

Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin 9 ayında vətəndaşlardan daxil olan ərizələrin sayı 168 ədəd, şifahi müraciət edənlərin sayı isə 295 nəfər azalmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə, iş adamlarına verilən güzəştli kreditlərə toxunan cənab Prezident İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fonduna ilin sonunadək kreditləşməni təmin etməsi barədə göstəriş vermişdir.

2017-ci ilin doqquz ayında ölkədə yol infrastrukturu ilə bağlı çox mühüm layihələrin icra edildiyini, gələn il isə daha çox kənd yolu inşa ediləcəyini vurğulayan cənab İlham Əliyev bu layihələrin bölgələrimizin turizm sektorunun inkişafına təkan verəcəyini demişdir.

İl ərzində 150 min hektar torpağa suvarma suyunun verildiyini, gələn il isə kənd təsərrüfatının inkişafını təmin etmək üçün 100 min hektara su veriləcəyinə diqqət çəkən ölkəmizin başçısı, fermerlərin kənd təsərrüfatı texnikaları ilə təmin edilməsi istiqamətində də mühüm addımların atıldığını, bölgələrdə logistik mərkəzlərin tikildiyini, hazırda 400 hektardan çox sahədə yeni müasir istixana komplekslərinin salındığını bildirmişdir.

Bölgələrdə müasir sənaye zonalarının yaradıldığını vurğulayan cənab İlham Əliyev ölkəmizin ixrac potensialını təbliğ etmək üçün sərgilərdə, beynəlxalq tədbirlərdə fəal iştirak etməyin əhəmiyyətinə toxunmuşdur.

Prezident tikinti sektorunda canlanmanın olduğunu, hazırda paytaxtımızda 95 yaşayış binasının tikildiyini, yararsız vəziyyətdə olan binaların yerində müasir yaşayış komplekslərinin inşa olunduğunu demişdir.

Ölkədə turizm sahəsində sürətli inkişafın müşahidə olunduğunu, infrastrukturun əsasən regionları daha çox əhatə etdiyini deyən cənab İlham Əliyev bu istiqamətdə işlərin davamlı olacağını bildirmişdir.

“ASAN xidmət” mərkəzlərinin yaradılması ilə bağlı işlərin uğurla getdiyini qeyd edən dövlətimizin başçısı “ABAD mərkəz”lərin yaradılmasının əhəmiyyətinə də toxunmuşdur.

Azərbaycanda ictimai-siyasi vəziyyətin və iqtisadi inkişafın bir çox ölkələr üçün nümunə olduğunu söyləyən dövlətimizin başçısı bu ilin sonunadək və gələcək illərdə də ölkəmizin uğurla inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin 9 ayında rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2017-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri bundan sonra da həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**